**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.2.231**

**SİTARƏ HÜSEYNLİ***

# MÜASİR AZƏRBAYCAN KERAMİKA SƏNƏTİNDƏ TƏBİƏTİN ESTETİK TƏZAHÜRÜ

*Azərbaycanın müasir keramika sənətində təbiət mövzusu təkcə estetik obraz kimi deyil, həm də milli kimliyin, mədəni yaddaşın və fərdi dünyagörüşün ifadə vasitəsi kimi çıxış edir. Klassik ustadların əsərlərində olduğu kimi, gənc nəslin nümayəndələri də öz yaradıcılıqlarında təbiətin müxtəlif simvollarını – quşlar, çiçəklər, su, torpaq və meyvələri – özünəməxsus formalarda təqdim edir. sBu sənət əsərləri yalnız dekorativ gözəlliyi deyil, eyni zamanda dərin fəlsəfi və mədəni anlamı özündə birləşdirir.*

***Açar sözlər:*** *təbiət elementləri, estetik harmoniya, dekorativ forma*

## Giriş

Təbiət şairlər, filosoflar, alimlər, mütəffəkkirlər, yazarları hər zaman cəlb edən mövzu olduğu kimi, rəssamlar üçün də tarix boyu ən böyük ilham mənbəyi olmuşdur.

Təsadüfi deyil ki, ölkəmizdə müasir dövrdə keramika sənətində ən çox bəhs edilən mövzulardan biri də təbiət mövzusudur. Həm klassik sənətkarların, həm də gənc nəslin keramikaçı-rəssamlarının yaradıcılıq fəaliyyətində yer verilən təbiət ünsürləri hər nəslin populyar mövzusuna çevrilmişdir. [6]

## Əsas təhlil

Müasir Azərbaycan keramika sənətində təbiətin estetik təzahürü təkcə vizual zövq deyil, həm də mədəni, fəlsəfi və simvolik qatların vəhdəti kimi qiymətləndirilə bilər. Gənc və klassik sənətkarların yaradıcılığında təbiət rəmzləri  yeni məna qazanır, keramik formalar isə bu mənaların daşıyıcısına çevrilir. Bu sənət nümunələri təkcə sənət obyekti deyil, həm də təbiətlə insan arasında bağ yaradan simvolik körpüdür.



**Şəkil 1. Nağıyev Mehdi. “Xəzərdə”. 2016.**

Azərbaycan keramika sənətində öz sözünü demiş ustadlardan olan Mehdi Nağıyevin yaradıcılığı mövzu rəngarəngliyi ilə hər zaman seçilmiş və tamaşaçıları əsərlərindəki rəng dinamikası ilə valeh etmişdir . Onun əsərləri hər zaman təbiətin füsunkar rənglərini özündə ehtiva edir. Təbiətin ən gözəl ilham mənbəyi olduğunu qeyd edən rəssam, onun əbədi rənglərini əsərlərinə yansıtmışdır. Rəssamın yaradıcılığında bir sıra dekorativ boşqablar gözə çarpır ki, bu qabların üzərindəki əsas

təsvir onun yaşadığı və hər zaman mənzərələrini seyr etdiyi sevimli Hövsan kəndinin təsvirləridir. Quşların ahəngi, təbiətin əvəzsiz rəng çalarları, vətənimizin bərəkətli torpağına rəssam laqeyd yanaşa bilməmişdir.

Hər zaman ən böyük ilham və fikir qaynağının təbiət olduğunu vurğulayan rəssamın "Xəzərdə" əsəri dairəvi həll edilən dekorativ formadır. Dekorativ formanın təpə hissəsində yerləşən kiçik fiqurlar neft buruqlarını və sərvətimizi simvolizə edir. Rəssam hər zaman yaradıcılıq fəaliyyətində ölkəmizin zənginlik simvollarını qürurla əks etdirmişdir. Dekorativ formanı daha da maraqlı edən onun rəng çalarlarıdır. Xəzərin ucsuz bucaqsız, coşqun dalğalarını rəssam boyalarla deyil, rəngli gildə ifadə etmişdir. Dənizlə bağlı sonsuz təəssüratlarını izləyicilərlə bölüşən keramikaçı-rəssam dulusçuluq aparatından çıxardığı formada rəngləri gilin axışına buraxmışdır. Bu özünəməxsus və orijinal proses nəticəsində rənglərin harmoniyası da məhz idarə edilə bilməyən dəniz dalğaları kimi forma üzərində üfüqi formada yayılır və təkrarolunmaz kompozisiya yaradır. [7]



**Şəkil 2. Aysu Mirzəzadə. "Xanım Şanapipik və Mimoza gülü". 2023**

Müasir dövrdə Azərbaycanda yaranan bir çox keramika emalatxanalarından biri də "Fırça izi"dir. Gənc keramikaçı-rəssamın ilham mənbəyi olaraq təbiət motivlərindən istifadə edərək hazırladığı dekorativ lampa dəsti olduqca göz oxşayır. Yaradıcılığında şirəaltı boyalara üstünlük verən rəssam hər iki formada da mimoza gülünü təsvir etmişdir. Xalq arasında "utancaq bitki" olaraq da adlandırılan bu gül öz əlvan sarı rəngi ilə təsvirə "istilik" gətirmişdir və müsbət auranın simvoluna çevrilmişdir. Mimoza gülü və onun çiçəklərinin təsviri hər iki dekorativ formada da təsvir edilmişdir, gənc keramist incə işlənilmiş yarpaqlarla kompozisiyanı tamamlamışdır.

Çox zərif işlənilmiş dekorativ lampalarda əsas obrazlardan biri də şanapipikdir. El arasında bir çox rəvayətləri olan bu quş "tacı" ilə digər quşlardan seçilir. Azərbaycanın bəzi kəndlərində şanapipik quşu müqəddəs sayılır və insanlar ona zərər verməz. Rəssam təbiətin gözəlliklərini yüksək zövq, incəlik və zərafətlə forma üzərinə əks etdirərək detallara xüsusi diqqət yetirmişdir.



**Şəkil 3. Quliyeva Ətiqə. "Narlar". 2024**

Yaşlı nəslin nümayəndələrinin yaradıcılığında olduğu kimi müasir dövr keramika sənətində gənc nəslin təbiət sevgisi hər zaman hiss edilmişdir. Gənc keramikaçı-rəssamlar arasında istedadı ilə seçilən Quliyeva Ətiqə Mahir qızı "Narlar" dəsti ilə təbiət sevgisini əks etdirməyi bacarmışdır. İki dekorativ formadan ibarət olan dəst də həm böyük, həm kiçik ölçülü nar forması kobaltdan istifadə olunaraq rənglənilmişdir. Rəssam formanın özünü də təbiətdən götürərək əsəri daha canlı və təbiətə bağlı hala gətirir. Çox gözəl olan tək rəngli keramik məmulat qızıl detallarla işlənərək tamamlanmışdır. Rəssam yaradıcılığında şirəaltı boyalarla işləməyi, həmçinin birrəngli tonlarda işıq-kölgə oyunlarını, zərif naxışlar təsvir etməyi çox sevir.

Rəssam qeyd edir ki, onun maraq dairəsində hər zaman möhtəşəm Azərbaycan xalçaları olmuşdur. Naxışlar və islimiləri hər zaman öz əsərlərində istifadə edən rəssam, gülləri işləyərkən islimi naxışını düşünmüş və beləcə hər iki ornamenti bir qədər sintez etmişdir. Kobaltın verdiyi sürməyi rəng ilə xalçaların əvəzolunmaz rəng uyumu əsərdə də təzahür etmişdir. Gənc rəssam dekorativ-tətbiqi sənətin ən gözəl 2 qolu – keramika və xalça sənəti arasındakı incə cizgini məharətlə tamaşıça çatdırmağa nail olmuşdur. [3]

Əsərlərində yerli flora və faunadan istifadə edən keramikaçı-rəssamlar, yalnız gözəlliyi yox, həm də dərin simvolik mənanı ifadə etməyə çalışırlar. Məsələn, nar obrazı bolluq, bərəkət və ailə birliyinin simvolu kimi Azərbaycan mədəniyyətində önəmli yer tutur. Bu mənanı keramik məmulatda yaşatmaq isə yalnız forma deyil, eyni zamanda rəng, faktura və tətbiq texnikası ilə dəstəklənir.

Müasir Azərbaycan keramika sənətində təbiət yalnız vizual təsvir obyekti deyil, eyni zamanda dərin mənalar daşıyan simvola çevrilmişdir. Bu sənətdə təbiət elementləri – su, torpaq, hava və od – yalnız forma və rəng vasitəsi ilə deyil, həm də mədəni kodlar vasitəsilə tamaşaçıya ötürülür. Keramika sənətində istifadə olunan təbiət rəmzləri milli kimliyi, yerli dəyərləri və mədəni yaddaşı ifadə edən elementlərə çevrilir.

Müasir keramikaçı-rəssamların yaradıcılığında təbiətə yaxınlıq yalnız mövzu baxımından deyil, həm də istifadə olunan materiallar və texnologiyalar baxımından özünü göstərir. Təbii gil, mineral əsaslı boyalar, şirəaltı və şirəüstü bəzək texnikaları vasitəsilə təbiətin öz materialları ilə sənət yaradılır. Bu yanaşma həm estetik harmoniya yaradır, həm də təbiətlə bağlı sənət düşüncəsini ortaya qoyur.

Təbiət yalnız estetik təsvir obyekti deyil, həm də dərin rəmzlərin və mənaların daşıyıcısı kimi çıxış edir. Azərbaycan mədəniyyətində nar bərəkətin, həyatın və ailə birliyinin simvolu hesab olunur. Bu simvol keramikaçıların əsərlərində müxtəlif formalarda, bəzən gerçək, bəzən isə stilizə olunmuş şəkildə əks etdirilir. Eyni zamanda, quş obrazı – xüsusilə də şanapipik – Azərbaycan xalq inanc

sistemində müqəddəslik və himayəçi ruh anlayışı ilə bağlıdır. Bu obrazların keramika formalarında istifadə edilməsi, milli-mədəni kimliyin sənət vasitəsilə qorunmasının bir nümunəsidir. [1]

Təbiət elementləri – çiçəklər, meyvələr, heyvanlar – keramikaçı-rəssamların əlində həm gözəllik, həm də hekayə daşıyıcısına çevrilir. Bu motivlər tamaşaçını əsərin yalnız vizual qatında deyil, həm də hiss və düşüncə qatında təsirləndirməyə xidmət edir.

Müasir dövr Azərbaycan keramikasında qadın obrazı və təbiət motivləri tez-tez bir-birinə paralel verilən mövzulardır. Bu paralellik həm forma, həm də məzmun baxımından özünü göstərir. Qadın - məhsuldarlığın, zərifliyin və həyatın davamlılığının simvolu hesab olunur və təbiət də məhz bu xüsusiyyətlərlə vəhdətdə təzahür edir. Dekorativ formalar üzərində mimoza gülü, naringi, lalə və digər çiçək təsvirləri qadın obrazının metaforası kimi təqdim olunur.

Rəssam bu əlaqəni şüurlu şəkildə qurur və tamaşaçıya təbiətin insan ruhu ilə necə vəhdətdə olduğunu göstərməyə çalışır. Keramika kimi "yer" elementi ilə sıx bağlı olan sənət növündə qadının və təbiətin eyni müstəvidə ifadə edilməsi xüsusi bir məna daşıyır.

Rəssamların əsərlərində seçilən rənglər – yaşılın müxtəlif tonları, torpaq rəngləri, sərin mavi və isti qırmızılar – təbiətin içindəki ritmi və ahəngi əks etdirir. Bu ahəng keramika sənətinin əsas məqsədi olan forma və funksiyanın estetik vəhdətini tamamlamağa xidmət edir.

Keramika sənəti təkcə funksional və dekorativ aspekt daşımır, eyni zamanda fəlsəfi düşüncə üçün bir vasitəyə çevrilə bilir. Təbiətin dövriyyəsi – baharın gəlişi, payızın solğunluğu, suyun axışı, küləyin hərəkəti – bu sənətdə forma çevrilmələri ilə əks olunur. Hər bir əsər təbiətin bir anını "dondurur" və onu əbədiləşdirir. Beləliklə, müasir keramikaçı-rəssamlar öz əsərlərində insan və təbiət arasındakı əlaqəni, varlıq və yoxluq dialoqunu canlandırırlar.

Keramikaçıların dekorativ formalarda istifadə etdikləri rəng seçimi və texniki üsullar vasitəsilə təbiət motivlərinin təqdimatı, bu sənəti funksionallıqdan çıxarıb, onu emosiya və dəyərlərin daşıyıcısına çevirir. Əsərlərdəki hər bir element – istər şanapipik quşu, istər mimoza gülü, istərsə də Xəzərin rəngləri – izləyiciyə yalnız görünən obraz deyil, eyni zamanda duyulası təbiət hissini ötürür.

Azərbaycanın qədim sənət ənənələri sırasında keramika mühüm yer tutur. Tarixi qaynaqlara və arxeoloji tapıntılara əsasən, Azərbaycanın müxtəlif bölgələrində – Qəbələ, Gəncə, Naxçıvan və Şamaxı kimi ərazilərdə tapılmış saxsı nümunələr təbiət rəmzləri ilə bəzədilmişdir. Bu nümunələr üzərində günəş, ay, su dalğası, heyvan və bitki ornamentləri xüsusi simvolik məna daşıyırdı. [4]

Səfəvilər dövründə inkişaf edən dekorativ sənət növləri, o cümlədən keramika, saray sənəti ilə yanaşı xalq sənətinə də təsir etmişdir. Təbiətin motiv kimi istifadəsi bu dövrdə daha da incəlik qazanmış, çiçək təsvirləri, quş rəsmləri və stilizə olunmuş təbiət görüntüləri qab-qacaq və kafel səthlərində özünə geniş yer tapmışdır.

Müasir dövrdə Azərbaycan Rəssamlıq Akademiyası və digər ixtisaslaşdırılmış təhsil müəssisələrində dekorativ-tətbiqi sənət üzrə ixtisaslaşmış gənc keramlkaçı-rəssamların yetişdirilməsinə xüsusi diqqət ayrılır. Bu gənc rəssamlar ənənəvi keramika texnikalarını müasir düşüncə ilə birləşdirərək təbiətə yeni baxış bucağından yanaşırlar.

**Nəticə**

Tədris çərçivəsində təbiət motivlərinin araşdırılması, onların estetik və fəlsəfi aspektdə sənətə gətirilməsi xüsusi yer tutur. Tələbələr təbiətdən eskizlər hazırlayır, təbiət materialları ilə eksperiment aparır və formaları yaradarkən canlı müşahidələrə əsaslanırlar. Bu yanaşma həm sənətin orijinallığını artırır, həm də təbiətə bəşəri münasibətin sənətə inteqrasiyasını gücləndirir.

Azərbaycan Milli İncəsənət Muzeyində və digər qalereyalarda təbiət mövzulu keramik əsərlər xüsusi bölmələrdə nümayiş olunur. Bu nümunələr yalnız estetik baxımdan deyil, həm də təbiətin dəyəri və onun qorunmasının təbliği baxımından önəmlidir. Onlar tamaşaçını təbiətin qorunması, onun incəliyinin dərk edilməsi və mədəni irs kimi saxlanılması mövzusunda düşünməyə təşviq edir.

## ƏDƏBİYYAT


1. Abbasbəyli M. Azərbaycanın dekorativ-tətbiqi sənəti. Bakı, 2012.
2. Mehdi Nağıyev ilə müsahibə
3. Ətiqə Quliyeva ilə müsahibə
4. Rüstəmova, L. Müasir Azərbaycan rəssamlarının yaradıcılığında təbiət motivləri. Azərbaycan İncəsənət Jurnalı, 2(15), 2018
5. Əhmədov, R. Keramika sənətində rəng və forma. Bakı: Təhsil. 2010
6. Əliyeva, S. Gənc keramistlərin yaradıcılığında xalq sənətinə dönüş. Bakı: İncəsənət Akademiyası nəşriyyatı. 2020
7. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycanda_b%C9%99dii_keramika_s%C9%99n%C9%99ti
8. https://yeniazerbaycan.az/YAPxeber_e84062_az.html


***Azərbaycan Rəssamlıq Akademiyası***
***E-mail:sitare.huseynli@inbox.ru***

**Sitara Huseynli**

## AESTHETIC MANIFESTATION OF NATURE IN MODERN AZERBAIJAN CERAMICS ART

In contemporary Azerbaijani ceramic art, the theme of nature acts not only as an aesthetic image, but also as a means of expressing national identity, cultural memory and individual worldview. As in the works of classical masters, representatives of the younger generation present various symbols of nature in their creations - birds, flowers, water, earth and fruits - in unique forms. These works of art combine not only decorative beauty, but also deep philosophical and cultural meaning.

**Keywords:** *elements of nature, aesthetic harmony, decorative form*

**Ситара Гусейнли**

## ЭСТЕТИЧЕСКОЕ ПРОЯВЛЕНИЕ ПРИРОДЫ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСКОМ КЕРАМИЧЕСКОМ ИСКУССТВЕ

В современном азербайджанском керамическом искусстве тема природы выступает не только как эстетический образ, но и как средство выражения национальной идентичности, культурной памяти и индивидуального мировоззрения. Как и в произведениях классических мастеров, представители молодого поколения в своих творениях представляют различные символы природы - птиц, цветы, воду, землю и плоды - в уникальных формах. Эти произведения искусства сочетают в себе не только декоративную красоту, но и глубокий философский и культурный смысл.

**Ключевые слова:** *элементы природы, эстетическая гармония, декоративная форма*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 01.04.2025**
**Son daxilolma tarixi:08.05.2025**